# Oğru elə bağırır ki…







İctimaiyyətin geniş təbəqələri Azərbaycanın milli sərvətlərinin erməni terrorçuları tərəfindən talanmasına və ölkənin ekoloji fəlakətə sürüklənməsinə etiraz olaraq 16 gündən çoxdur ki, Laçın yolunda gecə-gündüz etiraz aksiyası keçirir və bununla dünyanın diqqətini həqiqətə yönəltmək istəyirlər.

Ermənilər isə həmişə olduğu kimi, yalanın ayaq tutub yeriməsinə ümid etməklə Laçın yolunu azərbaycanlıların bağladığını deyir, humanitar fəlakətə məruz qalmaları barədə car çəkirlər. Guya ki, Xankəndinin erməni əhalisi ağır blokadaya düşüb və onların məhv olmasına sayılı günlər qalıb. Amma bu zaman anlamırlar ki, nə dünya əvvəlki dünyadır, nə də Azərbaycan 30 il əvvəlki Azərbaycan. Biz dövlət kimi, xalq kimi əzəmətli inkişaf yolu keçmişik, savaşın bütün üsullarına yiyələnmişik. Üstəlik, erməni yalanlarını dəf etməyi də öyrənmişik. Ermənilər isə qəbul etmək istəmirlər ki, zaman dəyişib, müasir dünyanın tələbi həqiqətdir, necə deyərlər, Azərbaycanın atalar sözündəki kimi, "Ən böyük biclik düzlükdür".

Elə isə yalanları kim və hansı məqsədlər üçün körükləyir? Laçın yolunda şişirdilən ittihamlarla beynəlxalq müstəvidə bizə təzyiq göstərən erməni vandalları xal yığmağa çalışır və elə düşünürlər ki, qismən də olsa buna nail olurlar. Amma onlar yalan bataqlığında çabaladıqca, daha çox dərinə batırlar. Biz isə qışqırmırıq, informasiya müharibəsində ortaya faktları və real mənzərənin görüntülərini düzürük. Etirazların siyasi yox, ekoloji zəmində baş verdiyini deyirik. Bu da, dəfələrlə vurğulandığı kimi, ondan ibarətdir ki, müvəqqəti Rusiya sülhməramlılarının nəzarətində olan Azərbaycan ərazilərindəki "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqları ermənilər və şərikləri tərəfindən qanunsuz istismar edilir. (Yeri gəlmişkən qeyd edək ki, "Base Metals" adlı erməni şirkəti təkcə 2009-2017-ci illərdə "Qızılbulaq" yatağının istismarından 178 milyon dollar qazanmışdır). Azərbaycan ekoloqları məhz bu qanunsuzluğa etiraz edirlər. Onların irəli sürdüyü başlıca tələb Azərbaycan ərazilərində yerləşən faydalı qazıntı yataqlarında monitorinq və qiymətləndirmə aparılmasına şəraitin yaradılmasıdır.

Rusiyadakı milyardçı həyatını məlum səbəbdən Qarabağda məşəqqətli günlərə dəyişən Rubençik bizim sərvətlərimizdən Moskvada erməni lobbisinə və Xankəndidə sülhməramlılara nə boyun olubsa, heç kim bu "dövlət naziri"ndən soruşmur ki, qağa, sənin Azərbaycan ərazisində nə ölümün var?! Ermənilərə züy tutan xarici KİV də Puben Vardanyana bu sualı verməyi unudur, baxmayaraq ki, beynəlxalq hüquq müstəvisində adamın özgə torpağında "baş nazir" vəzifəsini icra edib taxta dırmanması ən yaxşı halda Don Kixotun yel dəyirmanından kosmik gəmi qayırması kimi fantastik görünür.

Xəbər verildiyi kimi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ABŞ, Türkiyə, Avropa İttifaqı, Yaponiya, Çin, Rusiya və başqa ölkələr də daxil olmaqla 100-dən artıq beyin mərkəzinə etiraz məktublarını yollamışdır. Ölkədə fəaliyyət göstərən digər ictimai təşkilatlar da dünyadakı həmkarlarına eyniməzmunlu məktublarla müraciət etmişlər. Bütün bunlar onu göstərir ki, Azərbaycan növbəti dəfə daha fərqli və daha təsirli mübarizə üsullarından istifadə etməyə başlamışdır.

Başqa necə ola bilər ki?! Axı görünən dağa bələdçi lazım deyil. Bizim aksiya başlayandan Rusiya sülhməramlılarının onlarca avtomobili Xankəndi-Laçın yolundan keçib iş-güclərinin dalınca getmişlər. Aksiya iştirakçıları humanitar yardım daşıyan erməni avtomobilləri üçün də heç bir maneə yaratmırlar. Əgər erməni tərəfinin bundan istifadə etmək fikri yoxdursa, deməli, onlara yenidən yalan tirajlamaq, zavallı obrazına çevrilmək üçün bəhanə lazımdır. Bəhanə lazımdır ki, öz oğru bağırtısı ilə doğrunun səsini batırsın.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 28 dekabr.- S.9.